

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 avqust 2021-ci il №63 (2571) https://mod.gov.az Qiyməti 30 qəpik


## "Vətən müharibəsi qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı"



*"N" hərbi hissəsinin zabit və əsgərləri də Vətən müharibəsində yaxından iştirak ediblər. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə cəsarət və hünərlə vuruşublar. Döyüş meydanlarından hərbi hissəyə qələbələrlə, zəfərlərlə dönüblər. Buna görə də hərbi hissədə həmsöhbət olduğumuz bütün zabit və əsgərlərin üz-gözündən qürur və iftixar yağırdı. Bu da təbii idi. Çünki onlar qalib ordunun qalib əsgər və zabitləri idilər.*

- Hərbi hissənin şəxsi heyəti Vətən müharibəsində böyük igidliklə, qəhrəmanlıqla vuruşdu, - deyə zabit Vasif Həsənov bizimlə söhbətə başladı. - Elə buna görə də İkinci Qarabağ müharibəsində düşməni məhv etdik. "Dəmir yumruq" əməliyyatında zabit və əsgərlərimiz üzərlərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəldilər. 44 gün davam edən Vətən müharibəsində ordumuz ermənilərin 28 illik işğalına son qoydu. Qəsbkarlar işğal dövründə möhkəmləndikləri mövqelərdən geri qovuldular. Döyüşlər zamanı düşmənin çoxlu canlı qüvvəsini məhv etdik, texnikasını vurub sıradan çıxardıq. Onları ağır məğlubiyyətə uğratdıq. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə düşmən nə qədər cəhd göstəsə də, gücümüz, qüdrətimiz qarşısında dayana bilmədi. Döyüşlərdən qalib qayıtmış zabit və əsgərlərimiz bu gün yenə də yorulmaq bilmədən təlim keçir, silahların və hərbi texnikanın sirlərinə daha dərindən yiyələnirlər.

Tarixin sınaqlarından çıxmış həqiqətdir ki, həmişə müharibədə döyüş hazırlığı yüksək olanlar rəqibini məğlub edir, zəfər çalır, qələbə sevinci yaşayır. Vətən müharibəsində ordumuzun zabit və əsgərlərinin döyüş hazırlığı yüksək olduğuna görə erməniləri ağır məğlubiyyətə uğratdılar, yağılara qalib gəldilər, xalqımıza qələbə sevinci yaşatdılar. Bu qələbələrin, zəfərlərin davamlı olması üçün zabit və əsgərlərimiz təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq dərs keçir, bacarıq və peşəkarlıqlarını artırır, daha güclü, daha məğlubedilməz olurlar.

(Ardı 2-ci səhifədə)



"Zəfər Bayrağımız etibarlı əllərdə, dəmir yumruq yerindədir!" adlı vətənpərvərlik tədbiri keçirilib

4-cü səhifədə



"Xatirələrdə, ürəklərdə yaşayır Babək" adlı tədbir hər kəsi qürurlandırıb

5-ci səhifədə



"Bürünc medal qazandığıma görə çox qürurluyam"

7-ci səhifədə



İşıqlı gələcəyə yol açan qəhrəmanlar

8-ci səhifədə

# Bakıda "Üç Qardaş - 2021" beynəlxalq təliminin yekun planlaşdırılması konfransı keçirilib

*Bakıda Azərbaycan, Pakistan və Türkiyənin xüsusi təyinatlı qüvvələri nümayəndələrinin iştirakı ilə "Üç Qardaş - 2021" birgə təliminin yekun planlaşdırılması konfransı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə təlimin proqramı, məqsədi, qarşıya qoyulan tapşırıqlar, iştirakçıların sayı və digər təşkilati məsələlər dəqiqləşdirilib.

"Üç Qardaş - 2021" beynəlxalq təliminin dost və tərəfdaş ölkələrin hərbi qulluqçularının sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılması üçün əlverişli mühitin yaradılmasına müsbət təsir göstərəcəyi qeyd olunub.

Konfrans avqustun 13-də başa çatıb.

# "Vətən müharibəsi qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı"



(Əvvəli 1-ci səhifədə)

Keçirilən məşğələnin əhəmiyyətindən söz açan mayor İdrak Ağayev dedi ki, bu gün məşğələdə iştirak edən əsgərlərimizin əksəriyyəti Vətən müharibəsinin od-alovundan keçib. Onlar döyüşlər zamanı düşmən hədəflərini dəqiq məhv edərək, qəsbkarlara sarsıdıcı zərbələr vurdular. Məhz belə cəsur əsgərlərin sayəsində torpaqlarımız erməni işğalçılarından azad edildi. Buna görə də hamımız qürur hissi keçirir, əsgərlərimizlə öyünürük. İkinci Qarabağ müharibəsində qazanılan qələbə bizi qürurlandırsa da, arxayınlaşdırmır. Məşğələ prosesində Vətən müharibəsində qazandığımız təcrübədən də istifadə edirik. Elə buna görə də dərslər səmərəli keçir. Gündən-günə əsgərlərimiz "Qrad" qurğusunun sirlərini daha dərindən mənimsəyirlər. Təcrübə və səriştələrini daim artırırlar. Bu gün əsgərlərimiz ixtisas hazırlığına uyğun olaraq döyüş maşınının tuşlanması mövzusunu məşq edirlər. Gördüyünüz kimi, şəxsi heyət tapşırıqların öhdəsindən bacarıqla gəlir, vəzifələrini cəld və çevik hərəkətlərlə yerinə yetirir. Bu, onların döyüş hazırlıqlarının yüksək səviyyədə olduğunu göstərir.

Qalib ordunun qalib əsgərlərinin növbəti məşğələsini izlədik. Döyüş maşınının komandiri əsgər Rahib Zeynalov sıranın qarşısında dayanaraq məşğələnin mövzusunu heyət nəfərlərinə ətraflı izah edir, qurğuda hissə və detalları göstərir".

Döyüş maşınının komandiri dərsin mövzusunu şəxsi heyətə ətraflı izah etdikdən sonra heyət nəfərlərinə suallar verdi, keçdiyi dərsi onlardan soruşdu. Əsgərlər çətinlik çəkmədən verilən sualları cavablandırdılar. Bütün bunlar bir daha sübut etdi ki, onlar dərsə maraqla qulaq asır, mövzuları dərindən mənimsəyirlər. Döyüş hazırlıqlarını artırmaq üçün məşğələdə fəal iştirak edirlər.

Arada yaranmış vaxtdan istifadə edib əsgər Rahib Zeynalovla söhbət etdik. Əsgər dedi ki, hərbi hissəmizin şəxsi heyəti Vətən müharibəsində böyük hünər və qəhrəmanlıq göstərdi. "Müharibənin elə ilk günlərindən ermənilərə bir-birindən sarsıdıcı zərbələr vurduq. Həm torpaqlarımızı azad etdik, həm də işğalçılardan şəhidlərimizin qisasını, intiqamını aldıq. Erməni qəsbkarlarının işğalçılıq planlarını alt-üst etdik. Xalqımıza böyük sevinc bəxş edən qələbənin qazanılmasında hamının payı var. Vətən müharibəsində qazanılan qələbə bizi çox sevindirir, amma arxayınlaşdırmır. Məşğələ üçün ayrılmış vaxtın hər dəqiqəsindən səmərəli istifadə edərək hərbi bilik və döyüş vərdişlərini daha dərindən mənimsəyirik. Biz Vətənin əsgərləriyik, ona görə də hər dəqiqə, hər an döyüşə, yurdumuzu qorumağa hazır olmalıyıq. Döyüşlərə hazır olmaq üçün isə daim məşq edir, hərbi sirlərə dərindən yiyələnirik. Yaxşı bilirik ki, döyüş hazırlığı yüksək olan əsgərləri həmişə uğur və qələbələr gözləyir".

- İxtisasım tuşlayıcıdır. Döyüşlərdə tuşlayıcının üzərinə böyük vəzifələr düşür, - deyə əsgər Vadim Bakiyev söhbətimizə qoşuldu. - İlk günlərdən Vətən müharibəsində iştirak etdim. İxtisasımı dərindən bildiyimə görə heç bir çətinlik çəkmirdim. Düşmənin həm canlı, həm də atəş nöqtələrini dəqiq hədəfə götürürdüm. Atəşimiz dəqiq olduğundan düşməni ağır itkilərə məruz qoyduq. Vətən müharibəsində göstərdiyimiz igidlik, cəsurluq bir daha sübut etdi ki, Azərbaycan əsgərinin, Azərbaycan zabitinin döyüş hazırlığı yüksək səviyyədədir. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun şəxsi heyəti ermənilərə sarsıdıcı zərbələr vurdu. Vətən müharibəsi qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı. Azərbaycan Ordusu Vətən müharibəsində qəti addım ataraq 44 gün ərzində işğala son qoydu. Bir daha dünyaya göstərdi ki, Azərbaycan Ordusu yenilməzdir, məğlubedilməzdir.

Heyət nəfərlərindən Nurlan Atakişiyev, Pənah Hüseynov, Valeh Bağırov və başqaları ilə də söhbət etdik, onların ürək sözlərini dinlədik. Əsgərlərdən eşitdiyimiz xoş sözlər ürəyimizi qürurla doldurdu. Onların cəld və çevik hərəkətlərini gördükcə bir daha əmin olduq ki, şəxsi heyət hər zaman məqsəd və məramına mütləq nail olacaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin mətbuata açıqlaması

10 noyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmamışdır.

Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur.

Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülür və bu kimi hallara imkan verilmir.

Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün bu kimi təxribatlara əl atır.

Bütün bunlar Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyanın Ermənistan ordusuna bütün vasitələrdən istifadə edərək güc tətbiq etmək barədə verdiyi məsuliyyətsiz və təhrikçi əmrinin fonunda baş verir. Xatırlatmaq istərdik ki, Ermənistanın sabiq müdafiə naziri David Tonayan da "yeni müharibələr, yeni ərazilər" adlandırdığı təxribatçı hərbi doktrina ilə çıxış etmişdi. Onun rüsvayçı aqibəti hər kəsə məlumdur.

Azərbaycan Ordusu tərəfindən bütün adekvat tədbirlərin görülməsi təmin olunacaqdır.

Rusiya Federasiyası sülhməramlı qüvvələri üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır.

# Tank bölmələri intensiv döyüş hazırlığı məşğələlərinə başlayıb



2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlər zamanı nəzəri biliklərini təkmilləşdirən tank heyətləri təhlükəsizlik qaydalarını öyrənir. Sonra hərbi qulluqçular döyüş maşınlarının idarə olunması vərdişlərinin təkmilləşdirilməsi üzrə məşğələlərə başlayır və praktiki atışlar icra edir.

* * *

Əlahiddə Ümumqoşun Ordunun tank və mexanikləşdirilmiş birləşmələri yeni tədris dövrünə aktiv məşğələlərlə başlayıb. Şəxsi heyətin döyüş meydanında hədəfləri ilk atəşlə məhv etmək vərdişlərinin təkmilləşdirildiyi məşğələlər davam edir.

Əlahiddə Ümumqoşun Ordunun birləşmələrindəki Təlim-Tədris Mərkəzlərində mövcud olan müxtəlif məşq qurğularında şəxsi heyətin mərmi və yanacaq sərf etmədən qazandığı bacarıqlar səhra şəraitində təşkil olunan məşğələlərdə yerinə yetirilən tapşırıqların icra vəziyyəti ilə qiymətləndirilir.

Məşğələlərdə əsas diqqət zirehli texnikaların ekipajlarına 44 günlük Vətən müharibəsində döyüş sahəsində qazanılmış təcrübənin mənimsədilməsinə yönəldilib.

Hazırda təlim mərkəzlərində heyətlərin döyüş əməliyyatları zamanı tankları, piyadaların döyüş maşınlarını və zirehli transportyorları idarəetmə vərdişləri təkmilləşdirilir, zirehli texnikanın ərazidə təbii və süni maneələri dəf etməklə sürülməsi icra edilir, müxtəlif manevrlər və atışlar həyata keçirilir.



# Narkomaniyaya qarşı mübarizə mövzusunda Azərbaycan Ordusunda tədbirlər keçirilib



***Ölkəmizdə narkomaniyaya qarşı mübarizə sahəsində aparılan maarifləndirmə tədbirləri çərçivəsində Azərbaycan Ordusunun hərbi hissə və birləşmələri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində seminar və görüşlər keçirilib.***



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müxtəlif qoşun növlərindən olan bir qrup zabit heyəti ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə" mövzusunda tədbir keçirildi.

Tədbir ümummilli lider Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsini yad etməklə açıq elan olundu.

Polkovnik Aydın Əyyubov son illər ölkəmizdə və dünyada narkomaniyaya qarşı mübarizə ilə bağlı keçirilən tədbirlər barədə toplantı iştirakçılarına məlumat verdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" ilə əlaqədar olaraq Azərbaycan Ordusunun bütün bölmələrində qabaqlayıcı və maarifləndirici tədbirlərin həyata keçirildiyini qeyd etdi.

Polkovnik Aydın Əyyubov bildirdi ki, Müdafiə Nazirliyi rəhbərliyinin əvvəlcədən gördüyü qabaqlayıcı tədbirləri sayəsində Azərbaycan Ordusunda narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə hallarına rast gəlinməyib. "Nəticədə ordumuzda şəxsi heyət arasında "narkomaniya əleyhinə" aparılan maarifləndirici tədbirlərin müsbət dinamikası müşahidə olunur. Bundan sonra da hərbi hissələrdə insan sağlamlığına zərər yetirən zərərli maddələr əleyhinə ciddi tədbirlər görüləcəkdir".

Polkovnik çıxışında, eyni zamanda Azərbaycan Ordusunun ötən il sentyabrın 27-də əks-hücum əməliyyatı nəticəsində 30 ilə yaxın erməni işğalı altında qalan torpaqlarımızın azad edilməsi ilə başa çatan döyüş əməliyyatlarından da bəhs edən zabit bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin birbaşa rəhbərliyi altında qazanılan qələbə məhz şəxsi heyətin nizam-intizamının, döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olmasının göstəricisidir.

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası işçi qrupu rəhbərinin müavini Tanrıverdi Aydınov bildirdi ki, narkomaniyaya qarşı mübarizə tədbirləri ölkəmizdə müntəzəm olaraq keçirilir. "Buna baxmayaraq hələ də mülki şəxslər arasında bu zərərli maddələrdən istifadə hallarına rast gəlmək olur. Bununla əlaqədar olaraq orta məktəblərdə, ali təhsil ocaqlarında mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilir. Ölkə başçısının sərəncamına əsasən, narkotik vasitələrin və psixotrop maddələrdən istifadə hallarının qarşısını almaq məqsədilə dövlət qurumları ilə sıx əlaqədə işləyirik".



Respublika Narkoloji Mərkəzinin direktor müavini İlham Məmmədov narkotik maddələrin asılılığına düşən insan faciələrindən söz açdı. "Narkotik və psixotrop maddələrin təsiri altına düşən insanlar müəyyən müddətdə reabilitasiya olunsalar da, onların tam müalicəsi artıq mümkünsüz olub. İnsan sağlamlığına zərər yetirən bu maddələrdən qurtulmağın yeganə yolu həmin maddələrdən istifadə etməməkdir. Bunun üçün də daim bu barədə ailədə, cəmiyyətdə önləyici tədbirlər həyata keçirmək lazımdır".

İ.Məmmədov qeyd etdi ki, ümumdünya səhiyyə təşkilatının yaydığı məlumata görə, yer üzündə əhalinin 3 faizi narkotik vasitələrdən asılı vəziyyətə düşüb. "Əvvəlki illərdə zərərli vasitələrdən istifadə edənlər yaşlı və orta yaşlı nəslin nümayəndələri idisə, indi gənclər və yeniyetmələr arasında istifadə halları artmaqdadır".

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni də narkotikanın insan sağlamlığına vurduğu zərərdən danışdı: "İnsan sağlamlığı əleyhinə istifadə olunan narkotik vasitələr bir çox hallarda bəzi qüvvələr tərəfindən məqsədli şəkildə ölkəmizə gizli yollarla gətirilir. Müvafiq dövlət qurumları narkotik vasitələrin dövriyyəsinin qarşısının alınması məqsədilə çox ciddi addımlar atır. Bu gün Azərbaycan xalqı tarixi qələbənin sevincini yaşayır. Buna baxmayaraq bizim bu qələbəmizi həzm etməyən qüvvələr var və onlar istənilən yolla cəmiyyətimizi bu zərərli vasitələrlə korlamaq istəyirlər".

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə Şöbəsinin rəisi Zümrüd Səmədova çıxışında qeyd etdi ki, hərbi qulluqçuların ailə üzvləri ilə müntəzəm olaraq görüşlər keçirilir və bu cür zərərli maddələrdən istifadə hallarının qarşısını almaq üçün mütəmadi iş aparılır. "Müdafiə Nazirliyi qapalı qurum olduğu üçün burada narkotik maddələrdən istifadə hallarına rast gəlmək mümkün deyil. Mülki həyatda daha çox əlaqədə olan insanlar arasında bu cür maarifləndirici təbliğatın aparılması daha müsbət nəticə verər".

Daha sonra çıxış edən Rafiq Allahverdiyev və başqaları da narkomaniyanın bəşəri bəla olduğunu və bu bəlaya qarşı hamılıqla mübarizə aparmağın vacibliyini önə çəkdilər.

Tədbirin sonunda polkovnik Aydın Əyyubov dəvəti qəbul edib gəldiklərinə və maraqlı çıxışlarına görə ordu rəhbərliyi adından qonaqlara minnətdarlığını bildirdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**12 avqust 2021 09:40**

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 11-i saat 22:20-dən etibarən avqustun 12-si saat 00:05-dək Çəmbərək rayonunun Çəmbərək, Ttucur, eləcə də Basarkeçər rayonunun Aşağı Şorca yaşayış məntəqələrində yerləşən mövqelərindən Gədəbəy rayonunun Zamanlı, Qaravəllər, o cümlədən Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**12 avqust 2021 22:33**

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 12-si saat 17:40-dan 20:55-dək Vedi rayonunun Arazdəyən, Çəmbərək rayonunun Çəmbərək, Ttucur yaşayış məntəqələrində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad, Gədəbəy rayonunun Zamanlı yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini mütəmadi olaraq iriçaplı silahlardan, həmçinin snayper tüfənglərindən də istifadə etməklə atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**13 avqust 2021 11:19**

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 12-si saat 21:26-da Gorus rayonunun Xəzinəvar yaşayış məntəqəsində yerləşən mövqelərindən Laçın rayonunun Qarıqışlaq yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Avqustun 13-ü saat 02:30-dan etibarən isə Azərbaycan Ordusunun Füzuli rayonunun Yuxarı Veysəlli, Xocalı rayonunun Sığnaq yaşayış məntəqələri və Şuşa şəhəri ətrafındakı mövqeləri atıcı silahlardan atəşə tutulub. Bu istiqamətlərə atəş, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən açılıb.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**13 avqust 2021 13:05**

Avqustun 13-ü saat 09:35-dən etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# “Zəfər Bayrağımız etibarlı əllərdə, dəmir yumruq yerindədir!” adlı vətənpərvərlik tədbiri keçirilib



***Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında "Dəmir yumruq" əməliyyatı ilə başlayan Vətən müharibəsində bütün xalqımız kimi Şamaxı və Ağsu rayon sakinləri də həm arxa, həm də ön cəbhədə möhtəşəm Zəfərin qazanılmasında səylərini əsirgəməyib, bu gün də rəşadətli Azərbaycan Ordusuna dayaqdırlar.***



Yüzlərlə şamaxılı, ağsulu gənc bütün cəbhələrdə cəsarətlə vuruşub, Qələbəyə gedən yollarda şəxsi şücaət və igidlik nümunələri göstərib. Onlardan neçəsi şəhidlik zirvəsinə ucalıb, neçəsi qazi kimi ailələrinə dönüb, neçəsi isə bu gün də yenilməz Ordumuzun sıralarında Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edir, müstəqilliyimizin keşiyində, torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanaraq Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətlərində düşmən təxribatlarının, döyüş mövqelərimizə hücum cəhdlərinin qarşısını mərdliklə və qətiyyətlə alırlar.

Vətən müharibəsində şəhadətləri ilə yeni tarix yazan, adları tarixə yazılan şəhidlərimizdən gizir Naiq Ələkbərovun və gizir İlkin Zülfüqarovun doğum günləri münasibətilə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə avqustun 8-də Şamaxı və Ağsu rayonlarında keçirilən "Zəfər Bayrağımız etibarlı əllərdə, dəmir yumruq yerindədir!" adlı vətənpərvərlik tədbiri ordu ilə xalqın sağlam mənəvi birliyinin nümayişinə çevrilib.

Müdafiə Nazirliyinin rəsmiləri, Şamaxı rayon İcra Hakimiyyətinin rəhbərliyi, şəhidin döyüşçü dostları, veteran təşkilatlarının və ictimaiyyətin nümayəndələri şəhərin giriş hissəsində həmişəyaşıl ağaclarla əhatə olunan yüksəklikdə salınmış Şəhidlər xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə dualar oxunub, məzarlar üzərinə çələng və tər çiçəklər düzülüb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Vətən müharibəsində qazanılan şanlı qələbədən, zabit və əsgərlərimizin rəşadətindən, xalqımızın arxa cəbhədəki fədakarlığından və əlbəttə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharətindən, hücum diplomatiyasından ətraflı söhbət açıb.

Qeyd olunub ki, bu gün şəhid gizirlər Naiq Ələkbərov və İlkin Zülfüqarovun ad günüdür. Onlar eyni gündə, avqustun 8-də dünyaya göz açıblar. Naiq Şamaxı rayonunun Bağırlı kəndində, İlkin isə Ağsu rayonunun Gursulu kəndində anadan olub.

Naiq Ələkbərov Azərbaycan Dövlət Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin Hərbi Tibb Məktəbini, İlkin Zülfüqarov isə Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçdikdən sonra "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursunu bitirib. Hər ikisinə "gizir" hərbi rütbəsi verilib.

Gizir N.Ələkbərov motoatıcı taborun tibb məntəqəsinin feldşeri, artilleriya divizionunun tibb məntəqəsinin rəisi - feldşer, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Gizir İ.Zülfüqarov isə motoatıcı taqım komandiri, mühəndis-kəşfiyyat qrupunun komandiri və kəşfiyyatçı kimi xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

Yeznə-qayın olan hər iki hərbi qulluqçu Vətən müharibəsinin başlandığı ilk gündən döyüş meydanlarına atılaraq respublikamızın ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda fəal iştirak edərək hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borclarını şərəflə yerinə yetiriblər. Naiq Ələkbərov Kəlbəcər uğrunda ilk döyüşlərdə iştirak edib və onlar Füzuli, Cəbrayıl rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsində mərdlik nümunələri göstəriblər.

Gizir İ.Zülfüqarov 2020-ci il oktyabrın 8-də Cəbrayıl rayonu ərazisində, gizir N.Ələkbərov isə oktyabrın 9-da Füzuli rayonu uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub.

Nəzərə çatdırılıb ki, hər iki gizir Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş hərbi paradın iştirakçısıdır və onlar Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə nazirinin əmri ilə "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunublar.

Gizir İ.Zülfüqarov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları, gizir N.Ələkbərov isə "Vətən uğrunda", "Cəsur döyüşçü", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, millət vəkili Tamam Cəfərova, Şamaxı Cümə məscidinin axundu hacı Mərhəmət Mustafayev, Şamaxı rayon Veteranlar Şurasının sədri Ağarza Bayramov və başqaları çıxış edərək şamaxılılar tərəfindən də şəhidlərimizin adlarının həmişə əziz tutulduğunu, adlarının əbədiləşdirildiyini və ailələrinin daim diqqət mərkəzində saxlanıldığını bildiriblər.

Aprel döyüşlərinin iştirakçısı, uzun müddət tabor və hərbi hissə komandiri vəzifələrində xidmət edən, "Vətən uğrunda", "İgidliyə görə" və bir çox döyüş medalları ilə təltif olunan, bu günlərdə isə Belarus Respublikasının Hərbi Akademiyasını fərqlənmə diplomu və qızıl medalla bitirən Azərbaycan Ordusunun zabiti polkovnik Fuad Ələkbərov əmisi oğlu Naiqlə və onun qayını İlkinlə bağlı xatirələrini söyləyib. O, iftixar hissi ilə vurğulayıb ki, bütün xalqımız kimi hər bir Şamaxıdan olan əli silah tutan gənc də bu gün Müzəffər Ali Baş Komandanımızın əmrlərinə hazırdır.



Vətən müharibəsi iştirakçısı, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin baş müəllimi polkovnik-leytenant Rəşaiq Ələkbərov da şəhid Naiq və İlkinlə bağlı xatirələrini bölüşüb, rayon gənclərinin peşə seçimində daha çox xüsusi təyinatlı təhsil müəssisələrinə üz tutduqlarını yüksək dəyərləndirib.

Naiqin atası, Birinci Qarabağ müharibəsi dövründə Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərin fəal iştirakçısı və bu gün də gənclərin vətənpərvərlik tərbiyəsində yaxından iştirak edən, Bağırlı kənd tam orta məktəbinin Çağırışaqədərki Hazırlıq fənni üzrə müəllimi Faiq Ələkbərov tədbir iştirakçılarını əmin edib ki, bundan sonra da yeni-yeni qəhrəmanların yetişməsi üçün yorulmaz fəaliyyət göstərəcək, şəhid oğlundan yadigar qalan üç nəvəsinin də atalarının adına layiq böyümələri üçün babalıq vəzifəsini yerinə yetirəcəkdir.

Şəhidin övladları Ömər və Zəminənin söylədiyi şeirlər tədbir iştirakçılarına kövrək anlar yaşadıb.

Şəhidlər xiyabanı ziyarət olunduqdan sonra Bağırlı kəndində şəhid Naiqin xatirə bulağının açılışı olub. Burada Vətən müharibəsinin hər gününə bir şam ağacı olmaqla 44 ağac əkilib.

Polkovnik Abdulla Qurbani, millət vəkili Tamam Cəfərova, şəhid Faiq Şıxəliyev adına Bağırlı kənd tam orta məktəbinin direktoru Asif Mirzəyev, Şamaxı rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş şöbəsinin müdiri, müharibə iştirakçısı, ehtiyatda olan baş leytenant Cəlal Bayramov və başqaları çıxış edərək ömür-gün yoldaşını və qardaşını itirən Əfsanə xanıma, eləcə də şəhidin yaxınlarına bir daha başsağlığı verib, səbir diləyiblər.

Şəhidin bacısı Günel qardaşına həsr etdiyi yeni şeirini oxuyub, məktəblilər şair Azər Əzizoğlunun şeirlərindən ibarət "Şəhidlər əbədi yaşayacaqlar!" adlı ədəbi kompozisiya təqdim ediblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Nihad Ələkbərov gələcəkdə qəhrəman şəhidlərimizin yarımçıq ömürlərini şərəflə davam etdirəcəyinə söz verib.

Uzun müddət Çuxuryurd kəndində fəaliyyət göstərən Kəlbəcər rayon 89 saylı orta məktəbində müəllim işləmiş şair-publisist Azər Əzizoğlunun alovlu çıxışı ilə növbəti tədbir də başa çatıb. O deyib: "Şəhidlər Vətənə məhəbbətin böyüklüyündən doğulan, daha uzun və mənalı bir ömrün sahibləridir. Onların qazancı heç də hər kəsə nəsib olmayan şərəfli və ləyaqətli bir əbədiyyətdir. Az-çox vicdanı olan hər bir kəsin borcudur ki, bircə an da olsa belə onlardan ayrılmasın, dünyaya onların nəzərləri ilə baxsın, onların yarımçıq qalmış ömürlərini öz ömürlərinə qataraq çiliklənmiş arzularının yerinə yetməsi üçün səy göstərsin. Bax, onda görəcəyik ki, Çingizləşmişik, Malikləşmişik, Mübarizə dönmüşük, Təbriz, Naiq, İlkin, Sabir... olmuşuq.

Qəhrəmanlığı bu günə qədər Tomrisdən, Babəkdən, Koroğludan, Nəbidən öyrənirdiksə, bu gündən belə onların ardıcılları, hər bir gəncimiz üçün örnək olan qəhrəman şəhidlərimizdən, igid qazilərimizdən və Azərbaycan Ordusunun mübariz zabit və əsgərlərindən öyrənməliyik. Onların hər biri haqqında nə qədər çox deyilsə də, qalaq-qalaq kitablar yazılsa da, filmlər çəkilsə də, xatirə abidələri ucaldılsa da azdır, çox azdır!.. Birdəfəlik hər birimiz yadda saxlamalı və unutmamalıyıq ki, şəhidlik azadlığımız, müstəqilliyimiz, dövlət kimi mövcudluğumuz, millət kimi yaşamağımız naminə şüurlu şəkildə özünü Vətən uğrunda şəhid edərək əbədiyyətə qovuşmaqdır!".

Günün ikinci yarısında Ağsu rayonunun Gursulu kəndində yol kənarında şəhid İlkin Zülfüqarovun ad günü münasibətilə inşa edilən xatirə bulağı qarşısında keçirilən "Poeziya saatı"nda A.Qurbani, şair-publisist A.Əzizoğlu unudulmaz şəhidlərimizin xatirəsinə, qazilərimizin fədakarlığına, Azərbaycan əsgərinin şərəfinə və Müzəffər Ali Baş Komandana, yenilməz Ordumuza həsr etdikləri şeirlərini oxuyublar.

Şəhid gizir Sabir Heydərovun atası Ceyhun müəllimin hərarətli çıxışı bulaq başına toplaşan hər bir kəsə qürurverici anlar yaşadıb: "Mənim oğlum Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra yenidən orduya qayıdıb. Peşəkar kəşfiyyatçı kimi Füzuli və Cəbrayıl rayonlarının bir çox yaşayış məntəqələrinin azad olunması uğrunda döyüşlərdə Naiqlə, İlkinlə bir yerdə vuruşub, döyüşüb, mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib. O da oktyabr ayının ilk günlərində şəhidlik zirvəsinə ucalıb. Mən təkcə Sabirimlə deyil, bütün şəhidlərimizlə fəxr edirəm. Azərbaycan əsgərinin şücaətindən qürur duyuram. Özüm də Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Oğul düşmən çəpəri deyilmi?! Bircə arzum budur ki, bulaqlarımız daim çağlasın, axar çaylarımız qurumasın, igidlərimiz döyüşlərdən həmişə zəfərlə geri dönsünlər!".

Şəhid İlkinin atası Nürəddin Zülfüqarov "Bir oğlum var idisə, indi Azərbaycan Ordusunda yüzlərlə, minlərlə İlkin kimi oğullarım var. Bu gün hərbi hissələrdə andiçmə mərasimləri keçirilir. Mənim isə arzum budur ki, onlar xidmətlərini şərəflə başa vurub sağ-salamat öz ailələrinə dönsünlər".

Şəhid ataları Faiq Ələkbərov, Nürəddin Zülfüqarov və Ceyhun Heydərov dövlətimizin başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə, tədbir iştirakçılarına minnətdarlıqlarını bildirib, ziyarətçilərlə birlikdə xatirə şəkli çəkdiriblər.

Yoldan keçən sürücülər avtomobillərini yol kənarında saxlayaraq izdihama yaxınlaşıb, şəhid valideynlərinə təsəlli verib, bulaq suyundan içiblər.

28 il öncə doğma Füzuli rayonundan məcburi köçkün düşən Şahzadə Fərəcova və Xəyal Sadıqova şəhid anasının qarşısında baş əyərək doğma kəndlərinin azad edilməsi uğrunda şəhid olan igidləri valideynlərinə bütün füzulililər adından dərin minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Xatirələrdə, ürəklərdə yaşayır Babək"

## adlı tədbir hər kəsi qürurlandırıb





***Respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edən, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirərək şəhidlik zirvəsinə ucalan igid oğullarımızın doğum və anım günləri silsilə vətənpərvərlik tədbirləri ilə qeyd edilir, onların məzarları ziyarət olunur, ailələrinə baş çəkilir, xatirələri ehtiramla yad olunur.***

Vətən müharibəsinin unudulmaz şəhidlərindən olan polkovnik-leytenant Babək Meyvəddin oğlu Ramaldanovun doğum günündə Müdafiə Nazirliyinin rəsmiləri, ailə üzvləri və yaxınları, eləcə də döyüşçü dostları, ictimaiyyət nümayəndələri İkinci Şəhidlər xiyabanına gələrək şəhidin məzarı üzərinə əkliллər qoyub, çiçəklər düzüb, xatirəsini ehtiramla yad ediblər.

Din xadimi şəhidlərin ruhuna dualar oxuyub, hərbi ənənələrə uyğun olaraq bir dəqiqəlik sükut elan edilib, orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani qəhrəman zabitin qısa, lakin şərəfli ömür yolu, Azərbaycan Ordusundakı şərəfli xidmətləri və Vətən müharibəsində göstərdiyi komandirlik məharəti, şəxsi mərdlik və şücaət nümunələri barədə ətraflı məlumat verib.

Nəzərə çatdırılıb ki, Babək Meyvəddin oğlu Ramaldanov 1982-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2004-cü ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzini (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) "Zabit ixtisas kursu"nu bitirib.

Gənc leytenant B.Ramaldanov Azərbaycan Ordusunda motoatıcı taqım komandirliyindən hərbi hissənin qərargah rəisi - birləşmə komandirinin müavini vəzifəsinə və "polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Hansı hərbi hissədə, hansı vəzifədə xidmətindən asılı olmayaraq qarşıya qoyulan xidməti vəzifələrin öhdəsindən layiqincə gəlib, komandanlığın göstərdiyi etimadı ləyaqətlə və vicdanla doğruldub, şəxsi heyət arasında böyük hörmət qazanıb.

Peşəkar, təcrübəli, intellektual səviyyəli, yüksək əxlaqi-mənəvi və iradi keyfiyyətlərə malik zabit kimi tanınıb.

2019-cu ildə Rusiya Federasiyası Müdafiə Nazirliyinin Ümumqoşun Akademiyasını fərqlənmə diplomu və qızıl medalla bitirib. Adı akademiyanın "Şərəf kitabı"na yazılıb.

A.Qurbani bildirib ki, Babək Ramaldanov sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları, o cümlədən "Qüsursuz xidmətə görə 2-ci və 3-cü dərəcəli" medalları ilə təltif olunub.

Vətən müharibəsinin ilk günlərindən Murovdağın strateji yüksəkliklərinin azad edilməsi uğrunda müqəddəs savaşa atılan igid zabitimiz sonralar Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin azad edilməsi naminə aparılan hərbi əməliyyatlarda iştirak edərək hərbi hissənin qarşısına qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 16-da Cəbrayıl rayonunun Hovuslu kəndini azad edərkən şəhidlik zirvəsinə ucalan igid zabitimizin nəşi iki gün sonra döyüş meydanından çıxarılaraq böyük izdihamın iştirakı ilə hərbi və dini ənənələrə uyğun olaraq İkinci Şəhidlər xiyabanında son mənzilə uğurlanıb.

Cəbhələrdə onunla tez-tez rastlaşan və qəhrəmanlıqlarına yaxından bələd olan polkovnik A.Qurbani "Xan oğlan xan dayısına çəkər" el məsəlini xatırladaraq tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Babək Ramaldanov xalqımızın və Ordumuzun şəxsi heyətinin yaxşı tanıdığı, ulu öndər Heydər Əliyevin 50 il əvvəl yaratdığı Cəmşid Naxçıvanski adına hərbi liseyin ilk məzunlarından biri, Milli Ordu quruculuğunda müstəsna xidmətləri olan, 1993-1994-cü illərin məşhur "Horadiz əməliyyatı"nın qəhrəmanı, iki dəfə "Azərbaycan Bayrağı" ordeni və bir çox döyüş medalları ilə təltif olunan polkovnik Şair Ramaldanovun bacısı oğludur və o da dayısına çəkib, dayısının yolunu seçib və Ramaldanovlar ailəsinin şərəfini həmişə uca tutub.

Şəhidin anası Xalidə xanım otuz ildən çoxdur ki, hərbi liseydə çalışır, gələcək zabitlərin, generalların daha sağlam, gümrah böyüməsi üçün səylərini əsirgəmir.

Ramaldanovlar ailəsi Azərbaycan Ordusuna ondan çox peşəkar zabit bəxş edib və onlar bu gün də Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edirlər.

Ehtiyatda olan polkovnik Şair Ramaldanov bacısı oğlu ilə fəxr etdiyini vurğulayıb. Bütün şəhidlərimiz kimi, Babəkin də intiqamının döyüş meydanında vuruşaraq alınmasına, tarixi ədalətin, ərazi bütövlüyümüzün bərpa edilməsinə, otuz illik həsrətə son qoyulmasına görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə, hər bir Vətən əsgərinə minnətdarlığını bildirib.

Babəkin dayısı oğlu, bu gün də Azərbaycan Ordusu sıralarında Vətənə sədaqətlə xidmət edən baş leytenant Əmirbəy Ramaldanov deyib: "Mən də Vətən müharibəsinin ilk günündən döyüşlərdə idim. Ermənistan üzərində qələbə çalacağımıza, düşməni sındıracağımıza, tarixi torpaqlarımızı işğaldan azad edəcəyimizə, nəyin bahasına olursa-olsun, öz varlığımızı kimi inanırdıq. Bizi döyüşdən-döyüşə, qələbədən-qələbəyə aparan Vətən torpağına sonsuz sevgimiz, döyüş ruhumuz, vətənpərvərlik hissimiz, xalq ilə ordunun mənəvi birliyi, həmrəyliyi və hər şeydən öncə, Müzəffər Ali Baş Komandanımıza inamımız idi. Biz yaxşı bilirdik ki, şəhid olsaq qanımız yerdə qalmayacaq, qazi olsaq yaralarımıza məlhəm tapılacaqdır, ailəmiz hər cür diqqət və qayğı ilə əhatə olunacaqdır.

Bibim oğlu Babək şəhid oldu, mən isə qanlı döyüşlərdən qalib ordunun qalib zabiti kimi qayıtdım. Xidmətlərim də ölkə rəhbərliyi tərəfindən layiqincə qiymətləndirildi. "Azərbaycan Bayrağı" ordeni və bir neçə döyüş medalı ilə təltif olunmuşam. Kaş Babəkin də ordeni ailəsinə deyil, şəxsən onun özünə təqdim ediləydi. Nə etmək olar, qismət belə imiş. Bundan sonra mən iki ömür yaşamalıyam. Xalqımızı əmin edirəm ki, Babək qardaşımın yarıyolda qırılan cavan ömrünü də öz ömrümə qataraq bundan sonra da xidmətimi şərəflə davam etdirəcəyəm".

Şəhidin atası Meyvəddin Ramaldanov göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına, ziyarətçilərə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları Xətai rayonundakı Kazımağa Kərimov küçəsində xatirə abidəsinin açılış mərasimində iştirak ediblər. Abidə üzərində qoşa qanad kimi Birinci Qarabağ müharibəsinin şəhidi, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən Kazımağa Möhsün oğlu Kərimovun və "Azərbaycan Bayrağı" ordenli şəhid zabitimiz Babək Meyvəddin oğlu Ramaldanovun surətləri həkk olunub.

Polkovnik Abdulla Qurbani hər iki şəhidin həyat və döyüş yolları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, Kazımağa Kərimov Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra bir müddət "Azərbaycan məktəbi" jurnalında, sonra isə "Azərbaycan müəllimi" qəzetində çalışıb.

1988-ci ildə doğma Vətənimizin üzərini qara buludlar aldığı bir zamanda Kazımağa Möhsün oğlu Kərimov da özünün bir Azərbaycan övladı olaraq torpaqlarımızın müdafiəsinə qalxmağa borclu olduğunu dərk edib və evini, ailəsini, hər şeydən uca tutduğu peşəsini arxada qoyaraq cəbhə bölgəsinə yollanıb. Onun döyüş yolu təkcə doğulub boya-başa çatdığı doğma Qubadlıdan deyil, həm də Goranboy rayonundan keçib.

Həmin rayonda yaradılan ilk könüllü özünümüdafiə taborlarından birinə komandir müavini təyin edilən K.Kərimov "baş leytenant" hərbi rütbəsi altında doğma torpaqlarımızın müdafiəsində fəal iştirak edib və o, 15 iyun 1992-ci ildə ömrünün 41-ci baharında şəhidlik zirvəsinə ucalıb.

Tədbirdə Milli Qəhrəman Kazımağa Kərimovun oğlu Rəşad Kərimov da iştirak edib. O, Vətən müharibəsi şəhidləri ilə yanaşı, Birinci Qarabağ müharibəsi şəhidlərinə də daim diqqət və qayğı ilə yanaşıldığına görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Mərasimdə şəhidin atası Meyvəddin Ramaldanov, Xətai rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsini icra edən Pənah İmanov, şəhidin dayısı Şair Ramaldanov, "Azərbaycan Bayrağı" ordenli baş leytenant Əmirbəy Ramaldanov və ictimaiyyət nümayəndələri çıxış ediblər.

Babək Ramaldanovun nənəsi Nuridə xanım üç "polkovnik" oğulun anası, neçə-neçə zabitin nənəsi olmağı ilə fəxr etdiyini, nəticələrinin də hərbi peşələri seçəcəklərinə əminliyini bildirib və tədbir iştirakçılarına bu mübarək ziyarətləri üçün xeyir-dua verib.

Tanınmış ictimai-siyasi xadim, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bu kimi tədbirlərin əhəmiyyətindən və xüsusən gənclərin qəhrəmanlıq ənənələri ruhunda tərbiyə olunmasında mühüm rol oynadığından danışıb. Müdafiə Nazirliyinin bu istiqamətdə fəaliyyətini də yüksək qiymətləndirib.

Şəhidin oğlu Süleymanın söylədiyi atasına həsr olunan şeir alqışlarla qarşılanıb.

Tədbir hərbi orkestrin ifa etdiyi "Heyratı", "Mehtər" marşlarının müşayiəti və A.Qurbaninin söylədiyi şeirlə başa çatıb:

*Bayrağım Babəkin*
*qanlı köynəyi,*
*Bu bayraq heç zaman*
*enməyəcəkdir!*
*Oğullar yataqda,*
*qızlar duvaqda*
*Əcəl kəfənini*
*geyməyəcəkdir!*

*Elə oğullar var bizim Orduda,*
*Atından endirər şər qüvvələri.*
*Komandan əmrinə*
*hazırdır bu gün*
*Hünər qüvvələri, ər qüvvələri!*

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Adı əziz, xatirəsi əbədidir Yaşarın” adlı vətənpərvərlik tədbirində hər kəs ondan fəxarətlə danışıb





***Bu günlərdə İkinci Şəhidlər xiyabanında Müdafiə Nazirliyinin, Füzuli və Binəqədi rayon İcra Hakimiyyətlərinin rəsmiləri, ailə üzvləri, yaxınları, ictimaiyyət nümayəndələri, döyüşçü dostları şəhid zabitin gül-çiçəyə qərq olunan, başı üstündə müqəddəs bayrağımız dalğalanan məzarını ziyarət edib, burada uyuyan bütün şəhidlərimizin, eləcə də onun ruhuna dualar oxunub, 46 illik həyat yoluna çıraq tutulub.***

1975-ci ilin 10 avqustundan şəhid olduğu 2020-ci ilin oktyabrın 2-dək olan ömür yolu kitab olub vərəqlənib, xatirələr yumaq kimi çözələnib, hər kəs ondan qürur ilə, iftixarla danışıb.

Füzuli ata: "Ölümünə inanmıram, o, öləsi oğul deyildi. Yaşar yenə döyüşdədir, Murovdağın zirvəsində yağılarla savaşır. Şəri qovur, zülmətləri yarıb keçir igidim", - deyə özü-özünə təsəlli verir.

Övladları Xanış, Əsli "Ata" deyib kövrəlir: "Atam ilə fəxr edirik hər zaman, qara daşdan bizə baxır atamız. Bu torpağın qədrin bilin, qoruyun hər qarışın. Torpaq qanla qarışanda Vətəndir. Atam bizi bu torpağı qorumağa çağırır!"

Yaraları qaysaqlanan əsgərin gözündəki qığılcıma, oda bax: "Qisasını vuruşaraq, döyüşərək almışıq. Rahat uyu komandirim, qardaşım. Bizim olub, bizimkidir Qarabağ!" deyib qamətini uca tutur qazimiz.

Şair yenə fikrə dalıb, dindirməyim amandı. Şimşək olub kükrəyəcək, çaxacaq: "Qızıl qanı lalə olub göyərib. Od nəfəsi Murovdağın qarın, buzun əridib. Minnətdardır sənə Vətən, bu torpaq! Köç qayıdır yurd yerinə ay qağa, yubanma gəl, gedirik Qarabağa!"

Xiyabanda izdiham var. Burada sevinc qəm-kədərə qalib gəlir, güc gəlir, burada hər gün "Vətən" sözü, "Əsgər" sözü, "Rəhmət" sözü milyon kərə səslənir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu fikirlər İkinci Şəhidlər xiyabanında Azərbaycan Ordusunun şəhid polkovnik-leytenantı Yaşar Sadıqovun doğum günü münasibətilə keçirilən mərasimdə polkovnik Abdulla Qurbaninin bir az şairanə, bir az kövrək, əsasən də qürur hissi ilə dilə gətirdiyi düşüncələridir.

Şəhidin məzarı ziyarət olunduqdan sonra xatirə mərasimi başlanır. Əvvəlcə respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunur.

Mərasimdə A.Qurbani tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, Yaşar Füzuli oğlu Sadıqov 1975-ci il avqustun 10-da Füzuli rayonunun Bala Bəhmənli kəndində doğulub. 1992-ci ildə kənd orta məktəbini bitirib. 1993-cü ildə Bakı Birləşmiş Ali Hərbi Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) daxil olub və 1995-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurub.

Qeyd olunub ki, 1993-cü il dekabrın sonlarında ulu öndər Heydər Əliyevin rəhbərliyi altında "Horadiz əməliyyatı" başlananda Yaşar hələ kursant idi. Çox çalışsa da, kursant taborunun komandirinə, məktəb rəisinə doğma rayonlarının düşmən işğalından azad edilməsi uğrunda könüllü olaraq döyüşlərə getmək üçün müraciət etsə də, müsbət cavab ala bilməyib. Düşmənə qarşı qəzəbini, nifrətini, kinini içində boğub. 1994-cü ilin ilk yanvar günlərində Füzuli və Cəbrayıl rayonlarının Horadiz qəsəbəsi də daxil olmaqla 22 yaşayış məntəqəsinin işğaldan azad edilməsi xəbəri onun hədsiz sevincinə səbəb olub.

Təhsilini başa vurduqdan sonra Yaşar gənc zabit kimi Naxçıvan Muxtar Respublikasına göndərilib, motoatıcı taqım komandiri vəzifəsindən hərbi hissənin kəşfiyyat bölməsinin zabiti vəzifəsinədək yüksəlib.

2016-cı ilin Aprel döyüşlərindən az sonra xidmət yeri Bakı Qarnizonunda yerləşən hərbi hissələrdən birinə dəyişdirilib və o, burada da xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Motoatıcı tabor komandiri, hərbi hissə komandirinin müavini olaraq nümunəvi xidmətləri ilə həmişə komandanlığın rəğbətini, tabeliyində olanların isə böyük sevgisini qazanıb.

Yaşar Sadıqov 2018-ci ildən Beyləqan, Xocavənd istiqamətlərində hərbi hissə komandirinin müavini kimi xidmətini davam etdirib və nəhayət, Vətən müharibəsini Murovdağ istiqamətlərində yerləşən hərbi hissənin qərargah rəisi - birləşmə komandirinin müavini vəzifəsində qarşılayıb. Artıq o, "polkovnik-leytenant" idi.

A.Qurbani xatırlayaraq vurğulayıb ki, müharibənin ilk günündə Silahlı Qüvvələr veteranı olan Y.Sadıqov döyüşə yollanacaq şəxsi heyəti təcili olaraq ətrafına topladı. Cəlb edildiyimiz bu müharibənin son dərəcə ciddi bir müharibə olduğunu, bununla da torpaqlarımızın 30 illik işğalına, xalqımızın isə 30 illik həsrətinə tezliklə son qoyulacağına zəmin yarandığını bildirdi və şəxsi heyətə bir daha xatırlatdı ki, xidmət etdiyimiz bu hərbi hissə 1994-cü ilin yanvarında yaradılıb və həmin ayın 24-də xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə cəbhəyə yola düşüb.



Yolasalma mərasimində o vaxt dahi liderimiz demişdir: "Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz və indi cəbhəyə yola düşürsünüz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz Sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır. Ona görə də hər birinizə və ümumiyyətlə, hamınıza cansağlığı, səadət arzulayıram. Bu şərəfli vəzifənizi - Vətəni müdafiə etmək vəzifənizi yerinə yetirməkdə qəhrəmanlıq nümunələri göstərməyinizi arzulayıram.

Ümidvaram ki, bu deyilənlərin hamısına əməl edəcəksiniz və öz vəzifənizi igidliklə yerinə yetirəcəksiniz. Vətənimizi, ana və atalarımızı, bacı və qardaşlarımızı sevindirəcəksiniz.

Azərbaycan Ordusuna yeni-yeni uğurlar diləyirəm, sizin hər birinizə uğurlar arzulayıram.

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpağı, müqəddəs Azərbaycan Respublikası uğrunda irəli!".

Polkovnik-leytenant nəinki əbədiyaşar Ali Baş Komandanın bu fikirlərini, xeyir-duasını döyüşə yollanacaq igidlərə təkrarən xatırlatdı, eyni zamanda, onun özü də igid oğullara qoşularaq Murovdağın strateji yüksəkliklərində neçə illərdir ki, özlərinə mövqe seçmiş və bərkidib möhkəmləndirilmiş səngərlərdə oturmuş məkrli və hiyləgər düşmənin təxribatlarına cavab olaraq əks-hücuma keçdilər.

Düşmən mövqeyi darmadağın edildi, onlara canlı qüvvə və hərbi texnika sarıdan xeyli itki verildi. Lakin bir həftə sonra igid zabitimiz özü də bir neçə cəsur silahdaşı ilə birlikdə qəhrəmancasına şəhid oldu.

Uzun müddət onun da nəşini döyüş meydanından çıxarmaq mümkün olmadı. Həmin günlərdə şəhidin ailəsi, valideynləri böyük dözüm, səbir nümayiş etdirdilər. Nəhayət, 2021-ci il fevralın 26-da şəhid zabitimizin nəşi çıxarılaraq Bakı şəhərinə gətirildi və Xocalı faciəsi qurbanlarının xatirəsinin qeyd olunduğu bir vaxtda İkinci Şəhidlər xiyabanında böyük izdihamın iştirakı ilə son mənzilə yola salındı.

Sağlığında 6 döyüş medalı ilə təltif olunan igid zabitimiz ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olundu.

Tədbirdə Füzuli rayon İcra Hakimiyyəti başçısının birinci müavini Bağır Əslanov və Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova hər iki rayonun ictimaiyyəti adından şəhid valideynlərinə Vətənə layiqli oğul yetirdiklərinə görə minnətdarlıq edib, şəhidin Xanış və Əsli adlı yadigar övladlarının dövlətimizin və xalqımızın qayğısı səyəsində atalarının adına layiq tərbiyə olunacaqlarına, boya-başa çatacaqlarına əminliklərini bildiriblər.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Vətən müharibəsinin əhəmiyyətindən, bu müharibədə qazanılan möhtəşəm qələbənin xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, rəşadətli ordumuzun əsgər və zabitlərinin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin hücum diplomatiyasının, sərkərdəlik məharətinin qələbəsi olduğunu qeyd edib, şəhidlərin sıralarında adı və xidmətləri həmişə iftixarla xatırlanan polkovnik-leytenant Yaşar Sadıqovun xalqımızın qan yaddaşında əbədi yaşayacağını deyib.

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələrinə göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Füzuli Sadıqov şəhid oğlu ilə fəxr etdiyini, qürur duyduğunu bildirərək xalqımıza, dövlətimizə bundan sonra daha da xoşbəxt günlər, əmin-amanlıq, firavan həyat arzulayıb.

Xanış Sadıqov universiteti bitirəcəyi və müddətli həqiqi hərbi xidmətə yollanacağı günü, əsgər çəkməsi, əsgər uniforması geyəcəyi anı səbirsizliklə gözlədiyini diqqətə çatdırıb və şəhid atası ilə bağlı xatirələrini bölüşüb.

Tədbir iştirakçıları hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında İkinci Şəhidlər xiyabanından ayrılıblar.

# “Bürünc medal qazandığıma görə çox qürurluyam”



***Tokio-2020 Yay Olimpiya Oyunları artıq tarixə qovuşdu. Bu günlərdə bütün dünya idman sevərlərinin diqqəti yarışlara ev sahibliyi edən Yaponiyaya yönəlmişdi. Yay Olimpiya Oyunlarında iştirak edən idmançılarımız gərgin mübarizə apararaq uğurlar qazandılar və ölkəmizi beynəlxalq idman arenasında layiqincə təmsil etdilər. Güclərini, bacarıqlarını bir daha nümayiş etdirdilər.***



Hamımızın böyük maraqla izlədiyi gərgin mübarizə şəraitində keçən yarışlarda idmançılarımız 3 gümüş, 4 bürünc medal qazandılar. Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun zabiti baş leytenant Rafiq Hüseynov da Tokio-2020 Yay Olimpiya Oyunlarında ölkəmizin idman şərəfini layiqincə qorudu. Bu mötəbər yarışda dörd görüş keçirən təcrübəli yunan-Roma güləşçimiz turnirdə bürünc medal qazandı.

Yaponiyadan geri dönən idmançılarımız Heydər Əliyev adına beynəlxalq hava limanında böyük coşqu ilə qarşılandılar. Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun rəhbərliyi və şəxsi heyəti onları qarşılayanların arasında idi.

Yay Olimpiya Oyunlarında bürünc medal qazanmış güləşçimiz Rafiq Hüseynovla qısa da olsa, söhbət edə bildik. Bacarığı və peşəkarlığı ilə ölkəmizə bürünc medal qazandıran idmançı yarış təəssüratlarını bizimlə bölüşərək dedi ki, Tokio-2020 Yay Olimpiya Oyunlarında medal qazanmaq, respublikamızın idman şərəfini yarışlarda layiqincə təmsil etmək üçün getmişdik. “Məqsədimizə qismən nail olduq. Yarışlara qələbə əzmi ilə başladım. Dörd görüş keçirdim, dörd rəqiblə qarşılaşdım, dörd dəfə həyəcanlı anlar yaşadım. Zəfər qazanmaq asanlıqla başa gəlmir. Mübarizə aparmaq, qalib gəlmək həmişə çətin olur. Amma bütün bacarığımla mübarizə apararaq bu çətinliyi dəf etdim. Olimpiya Oyunlarına yola düşəndə arzulayırdım ki, nəyin bahasına olursa-olsun, qızıl medal qazanım. Amma təəssüflər olsun ki, dördüncü görüşdə uğur qazana bilmədim. Heç də hər şey arzuladığım və istədiyim kimi olmadı. Qarşılaşdığım rəqiblərdən biri erməni Karapet Çalyan idi. Düzdür, idmançı üçün rəqibinin hansı millətdən olmasının fərqi yoxdur. Buna baxmayaraq, mən mütləq ona qalib gəlməliydim. Qalib gəldim də! Medal mənə təqdim olunan anlarda gözlərim qarşısında illərdən bəri məşq etdiyim günlər, çəkdiyim əzab-əziyyət canlandı. Həmin dəqiqələrdə fikirləşirdim ki, insan əziyyət çəkib məşq etməsə, istəyinə nail ola bilməz. Əziyyətinin bəhrəsini görəndə isə çox sevinir. Qazandığım bu uğur illərdən bəri məşqlərdə topladığım təcrübənin nəticəsi idi. Bürünc medal qazandığıma görə çox qürurluyam, iftixar hissləri keçirirəm. Əminəm ki, bu qürur, bu iftixar gələcək yarışlarda məni daha da möhtəşəm qələbələrə, zəfərlərə qovuşduracaq. Belə təntənə ilə qarşılanmağımız isə, sözün həqiqi mənasında, sevincimizi daha da artırır. Qələbəmlə, zəfərimlə xalqıma sevinc bəxş etdiyimdən çox məmnunam”.

Tokio-2020 Yay Olimpiya Oyunlarından geri dönən idmançıların üz-gözündən sevinc və bəxtəvərlik yağırdı. İnanırıq ki, onlar gələcək yarışlarda daha böyük uğurlar qazanacaqlar. Ona da inanırıq ki, yunan-Roma güləşçimiz Rafiq Hüseynov 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarında da qaliblər sırasında olacaq. Yeni-yeni zəfərləri ilə xalqımızı sevindirəcək.

Tokio-2020 Yay Olimpiya Oyunlarında medal qazanan idmançılara dövlət tərəfindən pul mükafatı verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə sərəncam imzalayıb. Dövlət başçısının digər bir sərəncamı ilə olimpiadada qazandığı yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafındakı xidmətlərə görə bir qrup məşqçi və idmançı müxtəlif orden və medallarla təltif olunub. Olimpiadada bürünc medal qazanmış Hüseynov Rafiq Radik oğlu da 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Bütün bunlar dövlətin və dövlət başçısının idmana verdiyi qiymətin ən bariz nümunəsidir.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

## Ankarada “Qafqaz Qartalı-2021” təlimlərində “Yüksək səviyyəli müşahidəçi günü” keçirilib

Türkiyənin Xüsusi Təyinatlı Qüvvələr Komandanlığında keçirilən "Qafqaz Qartalı-2021" təlimləri başa çatıb. Avqustun 2-də start götürmüş təlimlərə Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı qüvvələrinin hərbçiləri qatılıblar. Təlimlərdə Azərbaycan xüsusi təyinatlı qüvvələrinin hərbi qulluqçuları da iştirak ediblər.

Azərbaycanın Ankaradakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, təlimlərdə məqsəd Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələri arasında dostluq, əməkdaşlıq və qardaşlıq əlaqələrini inkişaf etdirməkdir.

Avqustun 11-də keçirilən "Yüksək səviyyəli müşahidəçi günü"ndə Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları Eldəniz Namazov, Rafael Gözəlov, Anar Qasımov və Azərbaycanın Türkiyədəki hərbi attaşesi polkovnik Müşfiq Məmmədov iştirak ediblər.

*Hərbi texnikalar, silahlar*

## ZTR-3 transportyoru



Müasir ZTR-3 zirehli transportyoru Ukraynanın Morozov adına Xarkov maşınqayırma konstruktor bürosunda hazırlanıb. ZTR-3 zirehli transportyoru ZTR-80 zirehli maşınının modernləşdirilmiş variantıdır. Döyüş maşının dan hərbi əməliyyatlar zamanı motoatıcı bölmələri daşımaq, onlara atəş dəstəyi vermək və düşmənin kütləvi qırğın silahlarından bölmələri qorumaq üçün istifadə edilir.

Zirehli transportyor 2001-ci ildə istismara verilib. 2015-ci ilin sonuna qədər müxtəlif dəyişikliklər edilərək zirehli transportyorun döyüş keyfiyyətləri yaxşılaşdırılıb. Heyəti iki nəfərdən ibarətdir (sürücü-mexanik və operator). Desant bölməsinə səkkiz nəfər motoatıcı yerləşdirilir. Digərlərində olduğu kimi, ZTR-3E1-də də mühərrik-transmissiya bölməsində yanğın əleyhinə avtomat cihazlanma və kondisioner sistemi quraşdırılıb. Zirehli maşın güllə əleyhinə, zireh və mərmi əleyhinə dözümlü materialdan hazırlanmış mühafizəyə malikdir. 325 at gücündə altı silindirli dizel mühərrikə malikdir. Gülləyə davamlı fransız istehsallı şinlərlə təchiz edilib.

ZTR-3E1 maşını optik-elektron müşahidə, nişangah, atəşi idarəetmə "Trek-M" sistemi ilə təmin olunub. Onunla müşahidə aparmaq, yerüstü hədəfləri və təyyarələri aşkar etmək olur. Ayrıca panoram müşahidəetmə, hədəfi axtarma və hədəfgöstərici qurğuya da malikdir. Zirehli transportyorun çəkisi 16,5 ton, uzunluğu 7650 mm, eni 2900 mm, hündürlüyü 2860 mm-dir. Silahlanmasına 30 mm-lik top, pulemyot, "Baryer" TƏİR-i, qumbaraatan daxildir. Sürəti şosse yolda saatda 100 kilometrdir. Divar maneələrini asanlıqla keçə bilir, uzaq məsafələrə qədər üzmək qabiliyyəti var.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Pakistan Prezidenti Türkiyənin Milli Müdafiə nazirini qəbul edib



Pakistan Prezidenti Arif Alvi bu ölkədə səfərdə olan Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarı qəbul edib.

Pakistan mətbuatı xəbər verir ki, görüşdə bütün sahələrdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Türkiyənin Milli Müdafiə naziri Pakistanın Müstəqillik Günü münasibəti ilə Arif Alvini təbrik edib.

Hulusi Akar Pakistanın MİLGEM layihəsinin (bu layihə üzrə Pakistan Hərbi Dəniz Qüvvələri üçün 4 gəmi inşa ediləcək) ilk gəmisi olan BABÜR-ün bazar günü İstanbulda dənizə endirilməsi mərasiminə Prezident Rəcəb Tayyib Ərdoğanın rəsmi dəvətini Alviyə çatdırıb. Görüşdə hər iki tərəf üçün maraq kəsb edən digər məsələlər də müzakirə edilib.

## “Taliban” qüvvələri Əfqanıstanın Tacikistan və Özbəkistanla sərhədboyu ərazilərinə nəzarəti tam ələ keçirib



"Taliban" hərəkatı Əfqanıstanın Tacikistan və Özbəkistan ilə dövlət sərhədini tam nəzarətə götürüb.

İyulda Əfqanıstanın İran, Çin, Pakistan və Türkmənistan ilə sərhədboyu ərazilərini ələ keçirən "Taliban" hərəkatı son günlər ölkənin əyalət mərkəzləri olan Kunduz, Puli-Xumri, Cauzcan, Sari-Pul, Nimroz, Taxar, Samanqan və Farax şəhərlərini də nəzarət altına ala bilib. Hazırda ölkədə əsas magistral yollar, o cümlədən Məzari Şərif-Kabil dəhlizi məhz Puli-Xumri şəhərindən keçir. Bu yollar da artıq "Taliban"ın nəzarətindədir.

Xatırladaq ki, ABŞ hərbi kontingentinin Əfqanıstandan çıxarılmasından sonra xeyli fəallaşan "Taliban" hərəkatı ölkənin əyalət və şəhərlərini bir-birinin ardınca ələ keçirir. ABŞ hərbi qüvvələri avqustun 31-dək Əfqanıstanı tərk edəcək.

## Cənubi Koreya rəsmi Pxenyanın xəbərdarlığına baxmayaraq, ABŞ ilə birgə hərbi təlimlər keçirəcək



Rəsmi Seul Koreya Xalq Demokratik Respublikasının (KXDR) xəbərdarlığına baxmayaraq, ABŞ ilə birgə hərbi təlimlərin keçirilməsində qərarlıdır.

Yonhap agentliyi Cənubi Koreya hökumətindəki mənbələrə istinadən belə məlumat yayıb. Mənbə əvvəlcədən planlaşdırılan komanda-qərargah təlimlərinin təşkili üçün işin davam etdiyini, bununla bağlı ABŞ tərəfi ilə sıx məsləhətləşmələrin aparıldığını deyib. Cənubi Koreya hökumətinin rəsmisi COVID-19 böhranı ilə əlaqədar budəfəki təlimə yazda keçirilən təlimdəkindən daha az şəxsi heyətin cəlb olunacağını açıqlayıb. Təlimlərin avqustun 16-26-da keçiriləcəyi bildirilir.

Cənubi Koreyanın Müdafiə Nazirliyinin mətbuat katibi Boo Sunq-çan da təlimlərin detalları üzrə ABŞ ilə müzakirələrin davam etdiyini açıqlayıb.

Qeyd edək ki, KXDR Cənubi Koreya-ABŞ mütəmadi birgə hərbi təlimlərinə qarşı dəfələrlə etirazını bildirib. Sonuncu dəfə avqustun 1-də KXDR lideri Kim Çen Inın kiçik bacısı, hakim Koreya Fəhlə Partiyasının departament direktorunun müavini Kim Yo Conq rəsmi Seulu birgə hərbi təlimlərin iki dövlət arasında münasibətlərin bərpa prosesinə zərər vuracağı ilə bağlı xəbərdarlıq edib.

İki ölkə arasında ötən ilin iyununda dayandırılan birbaşa telefon əlaqəsi iyulun 28-də bərpa olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# İşıqlı gələcəyə yol açan qəhrəmanlar



***Qəhrəmanlar yurdu, igidlər məskəni olan Azərbaycan əlverişli coğrafi-strateji mövqeyinə, zəngin təbii sərvətlərinə görə zaman-zaman bədxah qonşuların təcavüzünə məruz qalıb. Lakin xalqımızın mənafeyini hər şeydən üstün tutan oğul və qızlarımız qarşısında duran düşmən qüvvələrini darmadağın edərək Vətənimizin azadlığını və müstəqilliyini qoruyub saxlayıblar. 44 günlük Vətən müharibəsində də vətənpərvər oğullarımız döyüş meydanında qəhrəmanlıq nümunəsi göstərərək, Vətən, Ana sözlərinin bizim üçün nə qədər müqəddəs olduğunu bütün dünyaya bir daha sübut etdilər.***

Vətənpərvərliyi ilə seçilən oğullarımızdan biri də Ruslan Əhədovdur. O, 1995-ci il dekabrın 30-da Bakı şəhərində anadan olub. 2002-ci ildə Sabunçu rayonunda yerləşən 271 nömrəli orta məktəbdə, 2006-cı ildən Respublika Olimpiya İdman Liseyində təhsilini davam etdirir. Orta təhsilini başa vuran Ruslan 2013-cü ildə Moskva Maliyyə Sənaye Universitetinin Menecment fakültəsinin qiyabi bölməsinə qəbul olur. 2014-cü ildə ordu sıralarına çağırılan hərbi qulluqçu düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində xidmət edir. Xidmətə gəldiyi ilk gündən nizam-intizamına, bilik və bacarığına görə komandir və silahdaşlarının hörmət və rəğbətini qazanır, mütəmadi olaraq hərbi vərdişlərini təkmilləşdirir. Qəlbi Vətən eşqi ilə döyünən gənc əsgər xidmətini başa vursa da, daim işğalda olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə qatılmaq arzusunda olur.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində əsgər Ruslan Əhədov döyüşlər zamanı qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir və Laçın rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Döyüşçü haqqında danışan mayor Əfqan Zeynalov bildirdi ki, sevgi, məhəbbətlə döyüşə yola salınan oğullarımız Vətənimizin ərazi bütövlüyünü böyük fərəhlə bərpa etdilər. "Belə əsgərlərimizdən biri də Ruslan Əhədovdur. O, ordu sıralarına çağırıldığı andan çiyinlərinə düşən məsuliyyəti yaxşı dərk edir, qarşıya qoyulan tapşırıqların öhdəsindən gəlmək üçün əlindən gələni əsirgəmirdi. Ruslan döyüşə qatıldığı minaatan batareyanın tərkibində Xankəndi, Şuşa və Qırmızı Bazar istiqamətində olan yolları nəzarət altında saxlayır, düşmənin canlı qüvvəsini məhv edərək texnikalarının hərəkətini məhdudlaşdırmaq tapşırığını icra edirdi".

Zabit qeyd etdi ki, döyüşçü, həmçinin Füzuli rayonunun Yuxarı və Aşağı Ayıbasanlı, Xocavənd rayonunun Yuxarı və Aşağı Yağlıvənd, Qarabulaq kəndləri istiqamətində gedən ağır döyüşlərin də iştirakçısıdır. Ruslan Əhədov Füzuli rayonu istiqamətində gedən ağır döyüşlərdə düşmən artilleriyasının atəşi nəticəsində yaralanan hərbi qulluqçuların döyüş meydanından təxliyəsində də fəal iştirak edib.

Vətənini sevən hər bir insanın əsas amalı və arzusu ölkəsinin bütövlüyü, xalqının azadlığıdır. Ana Vətənin azadlığını, doğma diyarın istiqlalını hər şeydən üstün tutan, Vətən müharibəsi iştirakçısı Ruslan Əhədovla həmsöhbət olmaq imkanı qazandıq.

- Azad və müstəqil olmayan Vətəndə azad vətəndaş ola bilməz, - deyə döyüşçü söhbətə başladı. - Dünyaya göz açdığımız gündən anamızı görürüksə, Vətən torpaqlarına qədəm qoyduğumuz andan Vətən sevgisinin, yurd eşqinin hərarətini daha dərindən hiss edirik. Bu sevgi illər ötdükcə daha da şirinləşir, möhkəmlənir və qırılmaz tellərlə bizi elimizə, obamıza bağlayır. Bu hisslə böyüyən gənclər hər an Vətəninin azadlığı uğrunda canından belə keçməyə hazırdırlar. Bu gün onların sayəsində ölkəmiz müstəqil və suveren dövlətdir. Biz də atalarımızın əmanət qoyduğu bu dövləti qorumalı və gələcək nəsillərə çatdırmalıyıq.

Döyüşlərdən danışan gənc bildirdi ki, Vətən müharibəsi xalqımızın haqq savaşı idi. "2020-ci il sentyabrın 27-də təxribat törətmək istəyən düşmən qarşısında Müzəffər Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşən Azərbaycan xalqını gördü. Əli silah tutan hər kəs Vətənimizin müdafiəsinə qalxdı. İgid oğullarımız döyüşlərdə yüksək əzmkarlıq göstərərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdilər. Fəxr edirəm ki, mən də torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etdim. İllərdir bu günü səbirsizliklə gözləyirdim. Şükürlər olsun ki, ailəmin yanına Qalib Ordunun qalib əsgəri kimi qayıtdım."

- Böyük Qələbənin qazanılmasında şücaətlə vuruşaraq şəhadətə qovuşan silahdaşlarımın payı əvəzsizdir, - Ruslan Əhədov dedi. - Onlar ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə son damla qanlarınadək vuruşub tarixi ədaləti bərpa etdilər. Şəhidlik məqamına ucalmaq ən böyük şərəf və qürurdur. Xalqımız torpaqlarımızın bütövlüyü uğrunda döyüşənləri heç vaxt unutmayacaq. Allahdan şəhidlik zirvəsinə ucalan qardaşlarıma rəhmət, əzizlərinə səbir diləyirəm.

Bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılan qələbənin qürurunu yaşayır, onu bizlərə yaşadanlarla fəxr edir. İllər keçsə də, hər dəfə döyüşlərdən danışılanda Ruslan Əhədov kimi vətənpərvər döyüşçülərimizi xatırlayacağıq. Onlar düşmənin işğalçı siyasətinə son qoyaraq, işıqlı gələcəyə yol açan qəhrəmanlardır.

**Kapitan**
**Ruslan HƏSƏNZADƏ**
**"Azərbaycan Ordusu"**

*Əsgər məktubu*

# Mən əsgərəm, ata!

***Uşaqlıqda da, yeniyetməlikdə də hər birimiz ata nəsihəti, ata öyüdü eşitmişik. Məktəbdə müəllimlərimizin dedikləri də eşitdiklərimizin davamı oldu. Vətən kəlməsinin müqəddəsliyini həmin vaxtlardan dərk etmişik. Biz də bu ruhla boya-başa çatmışıq.***



2016-cı ilin Aprel döyüşlərində uşaq idik. Cəbhədə nə olduğunu ata-anamızdan, qonşulardan eşidirdik. Qələbə qazanılanda biz də sevinci aşıb-daşan, kükrəyən yaşlılara, yeniyetmələrə qoşulduq. İndi də yadımdadır, ağsaqqalardan biri kövrəkliklə dedi:

- Bu qələbə başlanğıcdı, əsl qələbə torpaqlarımız işğaldan azad ediləndə olacaq.

Dedi və baxışları uzaqlara dikildi. Sonralar bildim ki, ağsaqqal Laçın rayonundandır, o anlarda Laçına sarı baxırmış...

Vətən müharibəsi başlayanda tələbəydim. Yoldaşlarım kimi, mən də döyüşlərə getmək istədim. Dedilər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə qismən səfərbərlik elan edilib, siz gedə bilməzsiniz. Təəssüfləndik, biz də qazanılacaq qələbənin əsgəri olmaq istəyirdik. Ancaq ruhən bizə elə gəlirdi ki, düşmənlə döyüşən əsgərlərin sırasındayıq...

Qazanılan hər qələbə bizim də ürəyimizi sevinclə silələyirdi. Biz də inanırdıq ki, ordumuz qalib gələcək. Suqovuşan ermənilərdən təmizlənəndə biz də duyduq ki, Zəfər günü uzaqda deyil...

Bu sevinci Azərbaycan Dövlət Dənizçilik Akademiyasının tələbəsi kimi tələbə yoldaşlarımla böyük duyğusallıqla bölüşdüm...

Ordumuz qələbə qazandı. Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Torpaqlarımız işğaldan azad olundu. Bu sevinc təkcə Azərbaycanda deyil, azərbaycanlılar yaşayan bütün ölkələrdə böyük coşqu ilə yaşanıldı...

İndi hərbi xidmətdəyəm.

Bu günlərdə mən də Hərbi and içdim. Zəfərdən sonra xidmətə başlayan gənc əsgər kimi mən də komandirlərimi, valideynlərimi, ictimaiyyətin nümayəndələrini əmin etdim ki, nümunəvi xidmət edəcək, komandirlərimizin bütün əmrlərini məsuliyyətlə yerinə yetirəcəyəm.

Atam dənizçidir. Böyük qardaşım magistraturada təhsil alır. Onlar da inanır ki, mən nümunəvi əsgər olacam. Zəfər qazananların yolunu mən də Vətənə sonsuz sevgimlə davam etdirəcəm.

Qürurla deyirəm: Mən əsgərəm, ata!

**Əsgər**
**Samir CƏBRAYILOV**
**"N" hərbi hissəsi**

# İdman

## Ağdamın "Qarabağ" klubu UEFA Konfrans Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb



Ağdamın "Qarabağ" klubu UEFA Konfrans Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb.

Avqustun 12-də Ağdam təmsilçisi Tofiq Bəhramov adına Respublika stadionunda Kiprin AEL komandasını qəbul edib.

Estoniyalı baş hakim Kristo Toverin idarə etdiyi oyunda "Qarabağ"ın start heyətində Şahruddin Məhəmmədəliyev, Qara Qarayev, Maksim Medvedev (k), Patrik Andrade, Abdullah Zubir, Xayme Romero, Filip Ozobiç, Toral Bayramov, Abbas Hüseynov, Ramil Şeydayev və Kevin Medina yer alıblar.

AEL-in heyətində isə meydana Vozinya, Andrey Teyşeyra, Slobodan Medoyeviç, Davor Zdravkovski, Stefan Sçepoviç, Bruno Santos, Manuel Torres, Euller Silva, Sito Riera, Robert Mazan və Kire Ristevski çıxıblar.

Qarşılıqlı hücumlar şəraitində keçən oyunda "Qarabağ" minimal hesablı qələbə qazanıb - 1:0. Matçın 87-ci dəqiqəsində Kadi fərqlənməklə komandasını turnirin növbəti mərhələsinə daşıyıb.

Qeyd edək ki, Kiprdəki ilk matçda 1:1 hesablı heç-heçə qeydə alınıb. İki oyunun nəticəsinə görə, "Qarabağ" klubu UEFA Konfrans Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb.

Təmsilçimiz pley-off mərhələsində "Breydablik" (İslandiya) - "Aberdin" (Şotlandiya) matçının güclüsü ilə üz-üzə gələcək.

## Yeniyetmə şahmatçımız dünya kubokunun seçmə yarışında birinci yeri tutub



10-12-14-16-18 yaşlı yeniyetmələr arasında rapid üzrə onlayn dünya kuboku yarışlarında ölkəmizi müxtəlif yaş qruplarında 29 zəka sahibi təmsil edir.

On iki yaşlıların 10 turdan ibarət seçmə yarışında təmsilçimiz Cahandar Azadəliyev maksimum xalla birinci yeri tutub. Bununla da şahmatçımız dünya kuboku yarışının final mərhələsinə vəsiqə qazanıb. Artıq 10 yaşlı oğlanlar və 18 yaşlı qızlar arasında seçmə yarışları yekunlaşıb. On turdan sonra 10 yaşlı oğlanların yarışında Azərbaycan şahmatçısı Xaqan Əhməd 9 xalla birinci yeri tutub.

On səkkiz yaşlı qızlar arasında keçirilən seçmə yarışda isə təmsilçilərimizdən Ayan Allahverdiyeva 7,5 xalla 3-cü, Gövhər Beydullayeva 7 xalla 7-ci pillədə qərarlaşıblar.

## Cüdoçumuz Avropa kubokunda gümüş medal qazanıb



Orenburqda (Rusiya) Azərbaycan komandasının da qatıldığı cüdo üzrə Avropa kuboku yarışı start götürüb.

Yarışda cüdoçularımız Rövşən Əliyev, Əhməd Yusifov (hər ikisi 60 kq), Elçin Hüseynov, Yaşar Nəcəfov (hər ikisi 66 kq), Nurlan Osmanov (73 kq), Adil Kərimli (100 kq), Camal Feyziyev və İmran Yusifov (hər ikisi 100 kiloqramdan yuxarı) mübarizə aparırlar.

Turnirin birinci günü təmsilçilərimizdən Nurlan Osmanov fərqlənib. Cüdoçumuz finala qədər bütün rəqiblərini məğlub etsə də, qızıl medal uğrunda qarşılaşmada Askar Narkulova (Qazaxıstan) məğlub olaraq gümüş medalla kifayətlənib.

İki gün davam edəcək turnirdə on dörd ölkədən 200-ə yaxın cüdoçu iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Məmmədov Həsən Ruşan oğluna məxsus SQ № 0019024 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 480
Nüsxə 4009